BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2013*

# HÜQUQ

UOT 343.1

## KASSASİYA PROTESTİNİN VERİLMƏSİ – KASSASİYA İNSTANSİYASI MƏHKƏMƏSİNDƏ DÖVLƏT İTTİHAMININ MÜDAFİƏ EDİLMƏSİ FORMASI KİMİ

**F.M.ABBASOVA**
***Bakı Dövlət Universiteti***
***firuza.abbasova@gmail.om***

*Kassasiya protesti dövlət ittihamının kassasiya instansiyası məhkəməsində müdafiə edilməsi vasitəsidir. Qüvvədə olan qanunvericiliyə əsasən, kassasiya protestinin verilməsi üçün müddət üzrlü səbəblərdən buraxıldıqda kassasiya protesti vermək hüququ olan şəxslər kassasiya instansiyası məhkəməsi qarşısında kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməsi haqqında vəsatət qaldırmaq hüququna malikdirlər. Müəllif tərəfindən kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməsinin bəzi problemli məsələləri şərh edilmişdir. Məqalədə, həmçinin, kassasiya protestinin verilməsi ilə bağlı digər prosessual əhəmiyyətli məsələlərə də diqqət yetirilmişdir. Müəllif cinayət-prosessual qanunvericiliyin bəzi normaları doktrinal qaydada şərh edilmişdir.*

**Açar sözlər:** cinayət prosesi, dövlət ittihamı, kassasiya protesti, müddətlər, subyektlər

Azərbaycan Respublikasında kassasiya instansiyasının mahiyyəti ilə bağlı məsələlərdə vahid qayda müəyyən edən əsas mövcuddur. Bu, AR Konstitusiya Məhkəməsi Plenumunun 28 fevral 2012-ci tarixli «AR MPM-in 420-ci maddəsinin şərh edilməsinə dair» Qərarıdır. Həmin qərarda, həmçinin, cinayət mühakimə icraatı üçün də əhəmiyyətli olan bir sıra fikirlər öz əksini tapmışdır. Qərarda qeyd edilmişdir ki: «…Azərbaycan Respublikasında həyata keçirilmiş məhkəmə islahatları nəticəsində yaradılmış yeni məhkəmə instansiyalarının, xüsusilə kassasiya instansiyasının Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş funksional vəzifələrinə nəzər yetirilməlidir …apellyasiya instansiyasına dair müddəaların müəyyən edilməsi, eləcə də, apellyasiya və kassasiya qaydasında icraatlara aid qaydaların ciddi fərqləndirilməsi prosessual qanunvericiliyin əsas yeniliklərindən biridir. Bu icraatlar tərəflərin hüquqlarının və qanuni mənafelərinin aşağı instansiya məhkəmə-

lərindəki pozuntulardan müdafiəsi üçün müəyyən edilmişdir <…> müraciətdə qaldırılan məsələnin düzgün həlli üçün kassasiya icraatının başlanmasının əsaslarının, onun mahiyyətinin, məqsədinin, xüsusiyyətlərinin, bu məhkəmə instansiyasında işə baxmanın hədlərinin açıqlanması böyük əhəmiyyət kəsb edir. Mənası latın dilində «cassatio» ləğvetməni ifadə edən «kassasiya» sözünün prosessual mənada hüquqi termin kimi işlədilməsi XVII əsrə təsadüf edir və Avropa məhkəmələrinin ənənəsində bu növ icraatı həyata keçirən ilk xüsusi orqan kimi 1790-cı ildə Fransa Kassasiya Tribunalı yaradılmışdır… Müasir dövrdə xarici ölkələrin mülki prosesində kassasiya qaydasında icraatın xüsusiyyət və hədlərinin müxtəlif modellərinə rast gəlinir. Kassasiya icraatının məhkəmə qərarının yalnız hüquqi qaydalara uyğunluğunun yoxlanılması kimi müəyyən edildiyi Fransa Respublikasını misal gətirmək olar. Əksər Avropa ölkələri, o cümlədən Belçika, Yunanıstan, Almaniya və İtaliya da sonuncu modeli seçmişlər. Ölkəmizdə keçirilmiş məhkəmə islahatları nəticəsində məhz həmin yanaşmaya üstünlük verilmişdir …Nəzəriyyədə və təcrübədə bu məsələlərlə bağlı iki mövqe formalaşmışdır. Bir mövqe ondan ibarətdir ki, kassasiya icraatı kassasiya şikayətinin dəlilləri ilə məhdudlaşdırılmalıdır. Müvafiq olaraq, məhkəmə aktının qanuniliyinin yoxlanılması şikayətdə pozulması və ya düzgün tətbiq edilməməsi iddia olunan normalarla məhdudlaşdırılmalı, yalnız şikayətçinin mübahisələndirdiyi halların müəyyən edilməsinin qanuniliyi yoxlanılmalı, məhkəmənin qənaəti isə yeni sübutlar üzərində qurulmamalıdır. Digər mövqeyə görə mübahisələndirilən məhkəmə aktının qanuniliyinin yoxlanılması kassasiya şikayətinin dəlillərindən asılı olmadan tam həcmdə keçirilməli və bu zaman kassasiya məhkəməsi bütün maddi və prosessual hüquq normalarının pozuntularını aradan qaldırmalıdır. Bununla bağlı qeyd edilməlidir ki, 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş mülki prosessual qanunvericiliyə görə kassasiya icraatı aşağı məhkəmələrin fəaliyyəti üzərində nəzarətin, məhkəmələr tərəfindən buraxılmış səhvlərin daha tez aradan qaldırılmasına və məhkəmələr tərəfindən qanunun birmənalı və dəqiq tətbiqinin təmin olunmasına imkan verən prosesin xüsusi növü kimi qəbul olunurdu. İşə kassasiya qaydasında baxılarkən məhkəmə işdə olan və əlavə materiallar əsasında qərarın qanuniliyini və əsaslılığını, yəni iş üzrə icraatın prosessual qaydasına riayət olunmasını və işin mahiyyəti üzrə həll olunmasını yoxlayırdı. Bu zaman kassasiya məhkəməsinin səlahiyyət hədləri yalnız şikayətdəki dəlillərlə məhdudlaşmırdı və iş tam həcmdə yoxlanılırdı. Qüvvədə olan MPM-də nəzərdə tutulmuş kassasiya icraatı mahiyyətinə görə əvvəlki prosessual qanunvericiliyə bəlli olmayan yeni mərhələdir. Hazırki kassasiya mərhələsi əvvəlki ilə yalnız eyni ada malikdir və ondan məqsədinə, obyektinə, burada yaranan hüquq münasibətlərinin mahiyyətinə görə əsaslı şəkildə fərqlənir. Kassasiya məhkəməsi apellyasiya məhkəməsinin qərarından verilmiş kassasiya şikayəti və ya protesti əsasında işə baxan məhkəmədir. İlk növbədə, qeyd edilməlidir ki, hər bir kassasiya şikayəti və ya protesti deyil, yalnız prosessual qanunvericilikdə nəzərdə tutulmuş <…> tələblərə cavab verən şikayət və ya protest kassasiya

icraatının başlanılması üçün əsas ola bilər <…>. Məhkəmə aktlarının qanuniliyi, ənənəvi olaraq, məhkəmə aktının maddi və prosessual hüquq normalarına uyğunluğu kimi qəbul olunur. Kassasiya məhkəməsi sübut və faktlara yenidən qiymət vermədən işin hallarını müəyyən olunmuş kimi qəbul edərək, apellyasiya məhkəməsinin qərarının mahiyyəti üzrə düzgün olub-olmamasını yoxlamır, onu yalnız məhkəmə tərəfindən qanunun tələblərinə riayət olunub-olunmaması maraqlandırır, çünki həmin məhkəmənin fəaliyyətinin fundamental prinsipinə görə, «kassasiya məhkəməsi işi deyil, qərarı mühakimə edir». Məhkəmə aktı o zaman qanuni hesab olunur ki, mübahisəyə prosessual qanunla müəyyən olunmuş qaydalara uyğun olaraq baxılmış və qərar qəbul olunmuş, mübahisələndirilən münasibətlər isə onlara dair maddi hüquq normaları ilə müəyyən edilmiş qaydalarla tənzimlənmişdir. Konstitusiya Məhkəməsi Plenumunun müxtəlif qərarlarında formalaşmış hüquqi mövqeyi xatırlanmalıdır ki, kassasiya məhkəməsi apellyasiya məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır…».

Kassasiya icraatı cinayət prosesinin müstəqil bir mərhələsi olmaqla qanunvericiliklə müəyyən edilmiş qaydada andlı iclasçıların iştirakı ilə birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökmlərdən, apellyasiya instansiyası məhkəmələri tərəfindən çıxarılmış qanuni quvvəyə minmiş hökm və qərarlardan hüququ olan şəxslər tərəfindən verilmiş şikayət, protest və ya təqdimata baxılması üzrə icraatdır.

Cinayət prosesinin mərhələləri dedikdə, cinayət prosesinin spesifik məqsədlər və vəzifələr, iştirakçı dairəsi, müddətlər, hərəkət və hüquq münasibətləri, eləcə də, sənədlər və qərarlarla xarakterizə edilən zəruri hissələri başa düşülür. Cinayət prosesinin mərhələlərin üzvi əlaqədədir. Onlardan daha əvvəldə gələni keyfiyyətsiz, səhv və əsassız həyata keçirilərsə, özündən sonrakı mərhələni ya ümumiyyətlə lüzumsuz edir, ya da onun effektivliyini azaldır. Ənənəvi olaraq, cinayət prosesinin mərhələləri məcburi və müstəsna mərhələlərə bölünür. Hər bir material və ya cinayət işi mahiyyəti üzrə həll edilməsi üçün məcburi mərhələləri ardıcıl olaraq keçməlidir. Material və ya cinayət işi üzrə icraata bu və ya digər mərhələdə qanuni əsaslarla xitam verildikdə onun sonrakı mərhələlər üzrə hərəkəti dayanır. Məcburi (əsas) mərhələlərin hər biri özündən əvvəlki üçün yoxlayıcı, özündən sonrakı üçün isə hazırlıq xarakteri daşıyır. Müstəsna mərhələlər işin mahiyyəti üzrə həll edilməsi üçün deyil, iş həll edildikdən, çıxarılmış məhkəmə hökmü və ya digər yekun qərarı qanuni qüvvəyə mindikdən sonra meydana çıxan mübahisələri həll etmək üçün həyata keçirilir. Azərbaycan Respublikasının cinayət prosesində kassasiya qaydasında işlərə yenidən baxılması mərhələsi müstəsna mərhələ kimi çıxış edir (1, 24-25, 27).

Kassasiya instansiyası məhkəməsi mübahisə edilən hökm və ya qərarın yalnız hüquqi baxımdan qanuniliyini, başqa sözlə, işə baxılarkən maddi və prosessual hüquq normalarının tələblərinə əməl edilib-edilməməsini yoxlayır. Bu səbəbdən hüquq ədəbiyyatında qeyd edilir ki, işə kassasiya qaydasında baxılması iş üzrə məhkəmənin həyata keçirilməsi deyildir, məhkəmənin fəaliyyəti

üzərində məhkəmənin həyata keçirilməsidir – məhkəmə üzərində məhkəmədir (9, 57; 10, 44).

Azərbaycan Respublikası cinayət mühakimə icraatı sistemində kassasiya instansiyası məhkəməsi qismində yalnız Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyası və hərbi kollegiyası çıxış edir.

Kassasiya icraatının qarşısında cinayət mühakimə icraatının ümumi vəzifələri ilə yanaşı, aşağıdakı xüsusi vəzifələr də durur:

1) məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarlarının kassasiya qaydasında mübahisələndirilməsinin əsaslarının olub-olmamasının müəyyən edilməsi;

2) kassasiya şikayəti və ya kassasiya protestinin ilkin öyrənilməsi yolu ilə hökm və ya qərarın kassasiya qaydasında mübahisələndirilməsi perspektivlərinin müəyyən edilməsi;

3) kassasiya şikayəti və ya protestinə mahiyyəti üzrə baxılması və müvafiq qərarın qəbul edilməsi.

Kassasiya instansiyasında dövlət ittihamının müdafiə edilməsi forması kassasiya protestinin verilməsi və müdafiə edilməsidir. AR CPM-in 409.9-cu maddəsinə əsasən, apellyasiya instansiyası məhkəməsinin icraatında iştirak etmiş dövlət ittihamçısı onun məhkəmə tərəfindən nəzərə alınmamış nəticə və təkliflərinə dair hissədən kassasiya protesti vermək hüququna malikdir. Göstərilən dövlət ittihamçısı vəfat etdikdə, xəbərsiz itkin düşdükdə, uzun sürən ağır xəstəliyə tutulduqda, protest verməkdən yayındıqda və ya imtina etdikdə, habelə onun mövqeyi ilə razılaşmadıqda Azərbaycan Respublikasının Baş prokuroru, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyası tərəfindən çıxarılmış hökm və ya qərarlardan həmçinin Naxçıvan Muxtar Respublikasının prokuroru apellyasiya instansiyası məhkəməsində iştirak etmiş dövlət ittihamçısının əvəzinə, kassasiya protesti vermək hüququna malikdir. Apellyasiya instansiyası məhkəməsində cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına AR CPM-in 392.2-ci maddəsinin tələblərinin ziddinə baxıldığı halda kassasiya protesti vermək hüququna Azərbaycan Respublikasının Baş prokuroru və ya onun müavini malikdir.

Kassasiya protestinin verilməsi ilə bağlı əhəmiyyət kəsb edən məsələlərdən biri kassasiya protestinin verilməsi üçün buraxılmış müddətinin bərpa edilməsidir. Həmin məsələ AR CPM-in 411-ci maddəsinin müddəaları ilə tənzim edilir. Belə ki, AR CPM-in 411.1-ci maddəsinə əsasən, kassasiya protestinin verilməsi üçün müddət üzrlü səbəblərdən buraxıldıqda kassasiya protesti vermək hüququ olan şəxslər kassasiya instansiyası məhkəməsi qarşısında kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməsi haqqında vəsatət qaldırmaq hüququna malikdirlər. Qüvvədə olan qanunvericilikdə həmin vəsatətin məzmunu və verilmə qaydası (məsələn, vəsatətin kassasiya protesti ilə eyni anda, yaxud daha əvvəl verilməsi olması) haqqında düzünə göstərişlər müəyyən edilməmişdir. Bununla əlaqədar olaraq, AR CPM-in 411.1-ci maddəsinin izah edilməsi üçün qeyd etmək istərdik ki, kassasiya protestinin

verilməsi üçün buraxılmış müddətin bərpa edilməsi haqqında vəsatətin məzmununda əsas diqqət bu müddətin buraxılmasına səbəb olmuş halların izahına və onların üzrlü hesab edilə bilməsi üçün gətirilən arqumentlərə verilməlidir. Həmin vəsatətin verilməsi qaydasına gəlincə isə, hazırki təcrübədə müvafiq vəsatət bilavasitə Ali Məhkəməyə kassasiya protesti ilə eyni anda təqdim edilir. Məsələn, Ali Məhkəmənin təcrübəsindən - 1(102)-800/08 №-li iş üzrə qərardan məlum olur ki, «… dövlət ittihamçısı apellyasiya qərarından verdiyi kassasiya protestində apellyasiya instansiyası məhkəməsinin qərarının ləğv edilməsini və işin yeni apellyasiya baxışına qaytarılmasını xahiş etmiş, həmçinin, qərardan kassasiya protesti verilməsi üçün buraxılmış müddətin bərpa edilməsi üçün vəsatət qaldırmış, vəsatəti onunla əsaslandırmışdır ki, apellyasiya instansiyası məhkəməsinin qərarı ittiham tərəfinə gec verildiyindən vaxtında kassasiya protesti verilməmişdir …» (4), eləcə də, 1(102)-64/10 №-li iş üzrə qərardan görünür ki, «…dövlət ittihamçısı kassasiya qaydasında verdiyi protestdə apellyasiya instansiyası məhkəməsinin qərarının ləğv edilməsi və işin yenidən baxılmasının təyin edilməsini xahiş etmiş, həmçinin, qərardan kassasiya protesti verilməsi üçün buraxılmış müddətin bərpa edilməsi barədə vəsatət qaldırmış, vəsatəti onunla əsaslandırmışdır ki, apellyasiya instansiyasının qərarının surəti ona vaxtında verilməmişdir …» (5). Qeyd edək ki, müasir doktrina da mövcüd təcrübəni dəstəkləyir və milli hüquq ədəbiyyatında qeyd edilir ki, buraxılmış müddətin bərpası haqqında vəsatət kassasiya şikayəti və ya protesti ilə birlikdə AR Ali Məhkəməsinə verilməlidir (3, 1136).

Nəzərdən keçirilən məsələ ilə bağlı qeyd edilməlidir ki, qüvvədə olan CPM-in bir sıra normalarından (məsələn, CPM-in 203.3, 218.4, 299.8, 302.1.8-ci və s. maddələri), eləcə də müqayisə üçün apellyasiya protestinin verilməsi müddətinin bərpa edilməsi qaydalarını nəzərdə tutan 386.1-ci maddəsindən fərqli olaraq, CPM-in 411.2-ci maddəsi «üzrlü səbəblər» kateqoriyasını tam anlamda açıq saxlamamışdır, müvafiq müddətin buraxılma səbəblərinin üzrlü hesab edilməsi üçün konkret kriteriyalar müəyyən etmişdir. Belə ki, AR CPM-in 411.2-ci maddəsinə əsasən, kassasiya instansiyası məhkəməsi kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpası haqqında vəsatəti aşağıdakı hallarda təmin etmək hüququna malikdir:

1) kassasiya protesti vermək hüququna malik olan şəxs səhhətinin uzun müddətli fiziki və ya psixi pozuntularına səbəb olan ağır xəstəliyə tutulduqda və bunun nəticəsində onun obyektiv olaraq vaxtında kassasiya protesti vermək imkanı olmadıqda;

2) kassasiya protesti vermək hüququna malik olan şəxsi vaxtında kassasiya protetsi vermək imkanından məhrum edən fövqəladə hadisə baş verdikdə.

Hazırki məhkəmə təcrübəsinin öyrənilməsi göstərir ki, Ali Məhkəmədə kassasiya protestinin verilməsi üçün müddətin bərpası məsələsi həll edilərkən müvafiq müddətin buraxılma səbəblərinin üzrlülük kriteriyasının müəyyən edilməsi üçün onların AR CPM-in 411.2-ci maddəsinə mütləq şəkildə uyğun

gəlməsi əlaməti birmənalı olaraq rəhbər tutulur və bu zaman heç bir genişləndirici təfsirə yol verilmir. Məsələn, Ali Məhkəmənin təcrübəsindən 1(102)-64/10 №-li iş üzrə qərarda göstərilir: «… məhkəmə kollegiyası həmin Məcəllənin 411.2-ci maddəsində nəzərdə tutulduğundan kassasiya protesti verilməsi üçün buraxılmış müddəti bərpa etmək hüququna qanun norması ilə müəyyən edilmiş hallarda malikdir … dövlət ittihamçısı vəsatətində isə həmin qanunla nəzərdə tutulmuş hallardan heç birinə istinad etməmişdir…» (5); 1(102)-800/08 №-li qərarda qeyd edilir: «…CPM-in 411-ci maddəsinə əsasən, kassasiya protetsi vermək səlahiyyətinə malik olan şəxslər səhhətinin uzun müddət fiziki və ya psixi pozuntularına səbəb olan ağır xəstəliyə tutulduqda və bunun nəticəsində onun obyektiv olaraq vaxtında kassasiya protesti vermək imkanı olmadıqda və ya onu kassasiya protesti vermək imkanından məhrum edən fövqəladə hadisə baş verdikdə səbəb üzrlü hesab olunur, belə hallarda kassasiya instansiyası məhkəməsi buraxılmış müddətin bərpası haqqında vəsatəti təmin etmək hüququna malikdir … dövlət ittihamçısının vəsatətində CPM-in 411-ci maddəsində nəzərdə nəzərdə tutulmuş əsaslardan heç biri göstərilmədiyinə görə vəsatətdə göstərdiyi səbəb üzrlü hesab oluna bilməz» (4).

Bununla belə, AR CPM-in 411.2-ci maddəsini tam mənada qapalı (müfəssəl) siyahı müəyyən edən norma kimi də izah etmək olmur, çünki həmin maddədə müvafiq «ağır xəstəliklərin» və ya «fövqəladə halların» qəti siyahısı nəzərdə tutulmur. Bu anlamda AR CPM-in 411.2-ci maddəsi konkret halları deyil, ayrı-ayrı işlər üzrə konkret halların üzrlü səbəb hesab edilməsi üçün onların cavab verməli olduğu əlamətləri (kriteriyaları) nəzərdə tutur. Ali Məhkəmə (kassasiya instansiyası məhkəməsi kimi) hər bir konkret iş üzrə müddətin buraxılması səbəbi kimi göstərilmiş halları məhz həmin əlamətlər əsasında qiymətləndirməli və qərar qəbul etməlidir. Müasir doktrina məhz bu mövqedən çıxış edir. Fikrimizcə, milli hüquq ədəbiyyatında, haqlı olaraq qeyd edilir ki, hadisənin fövqəladəliyi təqdim edilmiş materiallar əsasında vəsatətə baxan məhkəmə tərəfindən qiymətləndirilir və bu halın şəxsi kassasiya şikayəti və ya protesti vermək imkanından məhrum edib-etməməsi bunun əsasında aydınlaşdırılır (3, 1136). Ali Məhkəmənin təcrübəsindən 1(102)-332/2010 №-li iş üzrə qərarda da göstərilir ki: «… CPM-in 411.2-ci maddəsinin tələblərinə görə, kassasiya şikayətinin və ya kassasiya protestinin verilməsi müddətinin bərpası üçün cəmi iki hal müəyyən edilmişdir … qanunun mənasına görə kassasiya şikayəti və ya kassasiya protesti verən şəxs məhkəməyə müddətin bərpası barədə vəsatət verərkən bu vəsatətdə kassasiya şikayəti və ya protestinin vermə imkanından məhrum olmasını təsdiq edən sübutları sadalamalı və ya əlavə etməlidir» (6).

Hər bir halda kassasiya protestinin verilməsi üçün buraxılmış müddətin bərpa edilməsi barədə vəsatətin verilməsi, onun əsaslanlırılması və arqumentasiyası məsələsinə ciddi yanaşmaq lazımdır, çünki AR CPM-in 411.3-cü maddəsinə əsasən, kassasiya protestinin (eləcə də, kassasiya şikayətinin) verilməsi

üçün buraxılmış müddətin bərpasının rədd edilməsi haqqında kassasiya instansiyası məhkəməsinin qərarı qətidir və ondan şikayət verilə bilməz.

Kassasiya protestinin verilməsi qaydalarına əsasən (AR CPM-in 412-ci maddəsi), kassasiya protesti bilavasitə kassasiya məhkəməsinə verilməlidir, lakin CPM-in 412.1-ci maddəsinin məzmunundan belə çıxır ki, kassasiya protesti birinci (andlı iclasçıların iştirakı ilə) və ya apellyasiya instansiyası məhkəməsi vasitəsilə də verilə bilər, çünki həmin maddəyə əsasən, belə hallarda onlar həmin protesti kassasiya məhkəməsinə göndərirlər. Kassasiya protesti, ancaq belə protest vermək hüququ olan şəxs tərəfindən, həmçinin, yazılı şəkildə təqdim edilməlidir və bu protestə mübahisə edilən hökmün və ya qərarın surəti, eləcə də, protestin mənafelərinə toxunan cinayət prosesi iştirakçılarına çatacaq sayda surəti mütləq əlavə edilməlidir. Sadalanan tələblərin hər hansı birinin yerinə yetirilməməsi kassasiya protestinin baxılmamış saxlanması üçün əsasdır (AR CPM-in 415-ci maddəsi).

Qanunda kassasiya protestinə həmin protestin dəlillərini təsdiq edən sənədlərin əlavə edilməsi məsələsi dispozitiv tənzimetmə metodu ilə nizama salınmışdır. Bu, o deməkdir ki, belə sənədlərin kassasiya protestinə əlavə edilməsi subyektin hüququdur, məcburi xarakter daşımır və onların protestə əlavə edilib-edilməməsi protestin qəbul edilməsinə təsir göstərə bilməz.

Kassasiya protestinin məzmununa dair tələblər sistemi qanunla müəyyən edilmişdir (AR CPM-in 413-cü maddəsi). Qanuna görə, kassasiya protestində aşağıdakılar öz əksini tapmalıdır:

1) protestin ünvanlandığı kassasiya instansiyası məhkəməsinin adı;

2) protesti verən şəxsin adı və statusu;

3) hökm və ya qərarı çıxarmış məhkəmənin adı;

4) hökmün və ya qərarın qısa məzmunu və protesti verən şəxsin mülahizələrinə görə onun qanunsuzluğunun, əsassızlığının və ya ədalətsizliyinin nədən ibarət olması;

5) protesti verən şəxsin xahişi;

6) protestə əlavə edilən sənədlərin siyahısı.

Hesab edirik ki, kassasiya protestinin hazırlanması zamanı sadalananlar arasında protesti verən şəxsin mülahizələrinə görə onun qanunsuzluğunun, əsassızlığının və ya ədalətsizliyinin nədən ibarət olması və protesti verən şəxsin xahişinin nədən ibarət olması məsələlərinə xüsusilə diqqət yetirmək lazımdır.

Digər tərəfdən isə, kassasiya protestinin və ya şikayətinin verilmiş olması və onlarda kassasiya dəlillərinin göstərilmiş olması yalnız kassasiya icraatının qanuni şəkildə başlanması üçün vacibdir, kassasiya qaydasında hökmün və ya qərarın hüquqi məsələlərinin yoxlanılması üçün isə kassasiya protesti və ya şikayətinin dəlillərinin həcmi əhəmiyyətli deyildir – bu dəlillər kassasiya icraatının hədlərini müəyyən etmir.

AR CPM-in 414.2-ci maddəsinə əsasən, kassasiya instansiyası məhkəməsində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatda iştirak etmək üçün təyin

edilmiş dövlət ittihamçısı birinci və ya apellyasiya instansiyası məhkəməsində həmin icraatda iştirak etmiş dövlət ittihamçısının verdiyi kassasiya protestinə əlavə etmək, onu dəyişmək və ya geri götürmək hüququna malikdir. Göstərilən müddəa ondan irəli gəlir ki, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak edən prokurorlar daxili inamları əsasında yalnız qanuni ittihamı müdafiə edirlər. Çəkişmə prinsipi əsasında ədalət mühakiməsinin həyata keçirilməsində prokurorluğun prosessual fəaliyyətinin yalnız müdafiə tərəfinin mənafeyi əleyhinə yönəldiyi iddia edilə bilməz. Azərbaycan Respublikası CPM-nin çoxsaylı normaları cinayət təqibi orqanlarının üzərinə müdafiə tərəfinin hüquqlarının təmin edilməsi vəzifəsi qoyur və bu istiqamətdə səlahiyyətlər müəyyən edir. Bununla əlaqədar, cinayət təqibini istisna edən hallar aşkar edildikdə cinayət təqibindən imtina etmək vəzifəsi yuxarıda qeyd edilmişdir. Qanunda qeyd olunan məsələnin mahiyyətinə aydınlıq gətirən çoxsaylı müddəalar vardır. Məsələn, CPM-in 414.6-cı maddəsi dövlət ittihamçısı tərəfindən məhkumun xeyrinə protest verilməsinin mümkünlüyünü nəzərdə tutmaqla yanaşı müəyyən etmişdir ki, «Məhkumun, bəraət almış və ya barəsində tərbiyəvi və ya tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxsin xeyrinə dövlət ittihamçısının verdiyi kassasiya protesti məhkumun, bəraət almış və ya yuxarıda göstərilən şəxsin və onların qanuni nümayəndələrinin razılığı olmadan dövlət ittihamçısı tərəfindən geri götürülə bilməz». Məhkəmə təcrübəsində məhkum edilmiş şəxsin hüquqlarının müdafiəsi və vəziyyətinin yüngülləşdirilməsi ilə bağlı verilmiş protestlər heç də azlıq təşkil etmir. Qanunvericiliyin bu və digər analoji normaları ədalət mühakiməsinin həyata keçirilməsində prokurorluğun rolunun yalnız ittiham etmək olmadığını, əsaslı olduqda ittiham etmək, əsassız olduqda ittihamdan imtina etmək, məhkəmənin yekun hökm və ya qərarı müdafiə olunan şəxsə münasibətdə qeyri-adekvat olduqda qanun normalarının düzgün tətbiqini təmin etməkdən ibarət olduğunu göstərir.

Hər kassasiya protestinin verilməsində məntiqi məqsəd məhkəmənin hökm və ya qərarının kassasiya qaydasında ləğv edilməsi və ya dəyişdirilməsinə nail olmaqdır. Odur ki, kassasiya protestinin hazırlanması və verilməsi zamanı hökm və ya qərarın kassasiya qaydasında ləğv edilməsi və ya dəyişdirilməsi əsaslarının sisteminin qanunla müəyyən edildiyini (AR CPM-in 416-cı maddəsi) nəzərə almaq və protestdə məhz həmin əsaslardan birinin və ya bir neçəsinin mövcud olduğuna dair dəlillər gətirmək lazımdır.

Milli hüquq ədəbiyyatında qeyd edilir ki, AR CPM-in 416-cı maddəsində məhkəmənin hökm və ya qərarının dəyişdirilməsi və ya ləğv edilməsi üçün əsas verən hallar o qədər qarışıq sadalanmışdır ki, onlardan hansıların məhkəmə qərarının ləğv edilməsi üçün, hansıların isə həmin qərarların dəyişdirilməsi üçün əsas olduğunu tam aydınlığı ilə söyləmək çətindir. Ədəbiyyatda hesab edilir ki, məhkəmə qərarının ləğv olunmasına və ya dəyişdirilməsinə səbəb olan əsaslar qruplaşdırılmalı idi. Həmin əsaslar qruplaşdırılmadığından isə təcrübədə CPM-in 416-cı maddəsi ilə müəyyən edilən normaların tətbiqi çətinliklər yaradır (8, 107).

Beləliklə, həmin əsaslara ayrı-ayrılıqda baxaq:

– məhkəmənin cinayət prosesi tərəfinin təqdim etdiyi, ittihamın hərtərəfli, tam və obyektiv baxılması üçün mühüm əhəmiyyət kəsb edə biləcək sübutların tədqiqindən əsassız imtina etməsi. Kassasiya protestinin verilməsi və müdafiəsi zamanı qeyd edilən əsasa istinad edildikdə nəzərə almaq lazımdır ki, müvafiq sübutların tədqiqindən əsassız imtina dedikdə, həmin sübutların cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun olmasına baxmayaraq, birinci instansiya və ya apellyasiya instansiyası məhkəməsinin həmin sübutu qəbul etməməsi, yaxud qəbul etsə də, tədqiq etməməsi başa düşüləcəkdir (3, 1145). Məsələn, Ali Məhkəmənin təcrübəsindən 1(102)-218/2012 №-li iş üzrə qərardan görünür ki, kassasiya protestinin müəllifi qeyd etmişdir ki, apellyasiya instansiya məhkəməsi məhkum A.Ə. barəsində bəraət hökmü çıxararkən yalnız məhkumun müdafiə xarakterli ifadələrinə istinad etmiş, qarşı tərəfin ifadələrini, eləcə də onları təsdiq edən digər ifadələri isə sübut kimi qəbul etməmişdir. Əgər məhkəmə hökmdə hər iki tərəfi bir-birinə qarşı qərəzli olmaqla, onların verdikləri ifadələri fərziyyə xarakterli söz yığnağı kimi qiymətləndirirsə, onda nə üçün A.Ə.nın ifadələri digər tərəfin ifadələrini təkzib etmək üçün sübut kimi qəbul edilməlidir. Kollegiya kassasiya protestinin dəlilləri ilə razılaşaraq hesab etmişdir ki, apellyasiya məhkəməsi həqiqətən də belə bir qərar qəbul edərkən A.Ə.nın özünü müdafiə xarakterli ifadələrinə istinad edərək iş üzrə digər şahid və zərər çəkmiş şəxslərin ifadələrini əsassız olaraq sübut kimi qəbul etməmişdir (7).

– məhkəmənin CPM-in 143-146-cı maddələrinin tələblərinə müvafiq olaraq sübutları tədqiq etməməsi. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, CPM-in 143-cü maddəsi sübutların toplanması, 144-cü maddəsi sübutların yoxlanması, 145-ci maddəsi sübutların qiymətləndirilməsi, 146-cı maddəsi isə sübutların kifayət etməsi qaydalarını nəzərdə tutur. Deməli, kassasiya protestində nəzərdən keçirilən əsasa istinad edilərkən məhkəmə baxışı zamanı sübutetmə qaydalarının pozuntularına dair dəlillər gətirilməlidir.

– məhkumun təqsirliliyi və ya bəraət almış şəxsin təqsirsizliyi barədə məhkəmə hökmünün əsasını yolverilməz sübutların təşkil etməsi. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, sübutların yolverilməzliyini əsaslandırmaq üçün AR CPM-in 125.2-ci maddəsinə müraciət edilməlidir. Belə ki, həmin maddəyə əsasən, aşağıdakı hallarda əldə edilmiş məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsinə yol verilmir:

1) insan və vətəndaşların konstitusiya hüquqlarının və azadlıqlarının, yaxud CPM-in digər tələblərinin pozulması ilə cinayət prosesi iştirakçılarının qanunla təminat verilən hüquqlarından məhrum etmə və ya onları məhdudlaşdırmaqla bu sübutların həqiqiliyinə hər hansı yolla təsir göstərəcəyi və ya göstərə biləcəyi halda;

2) zorakılıq, hədə-qorxu, aldatma, işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan hərəkətlərin tətbiq edilməsi ilə;

3) şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüquqlarının, cinayət mühakimə icraatının aparıldığı dili bilməyən şəxsin hüquqlarının pozulması ilə;

4) cinayət prosesində iştirak edən şəxsin hüquq və vəzifələrinin izah edilməməsi, tam və ya düzgün izah edilməməsi nəticəsində öz hüquq və vəzifələrini yanlış başa düşməsindən istifadə etməklə;

5) cinayət təqibi üzrə icraatı həyata keçirmək, istintaq və ya digər prosessual hərəkətlər aparmaq hüququ olmayan şəxs tərəfindən bu hərəkətlər edildikdə;

6) cinayət prosesində onun iştirakını istisna edən halları bildiyi və ya bilməli olduğu halda etiraz edilməli şəxsin iştirakı ilə;

7) istintaq və ya digər prosessual hərəkətlərin icraatı qaydaları kobud pozuntularla aparıldıqda;

8) sənədi və ya digər əşyanı tanımağa qadir olmayan, onun həqiqiliyini, mənbəyini, əldə olunma hallarını təsdiq edə bilməyən şəxsdən alındıqda;

9) məhkəmə iclasında məlum olmayan şəxsdən, yaxud müəyyən olunmayan mənbədən alındıqda;

10) müasir elmi baxışlara zidd üsulların tətbiqi nəticəsində alındıqda.

– məhkəmənin CPM-in 391.6-cı maddəsinin müddəalarını yerinə yetirməməsi. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, CPM-in 391.6-cı maddəsində məhkəmə tərəfindən yol verilən bir sıra pozuntuların sistemi nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən, apellyasiya məhkəməsi aşağıdakı hallarda cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə materialların birinci instansiya məhkəməsinə qaytarılması haqqında qərar çıxarır:

1) birinci instansiya məhkəməsində icraat zamanı aparılmış məhkəmə iclasının protokolu məhkəmə iclasında sədrlik edən və ya məhkəmə iclasının katibi tərəfindən imzalanmadıqda;

2) hökmün surəti məhkuma və ya bəraət almış şəxsə verilmədikdə və ya onun ana dilində, yaxud bildiyi dilə tərcümə edilmədən verildikdə;

3) birinci instansiya məhkəməsinin hökm və ya qərarı məhkəmə baxışında iştirak edən hakim tərəfindən imzalanmadıqda;

4) cinayət işində, məhkəməyədək sadələşdirilmiş icraat materialında və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarında məhkəmə iclasının protokolu, birinci instansiya məhkəməsindəməhkəmə zamanı çıxarılmış hökm və ya qərar olmadıqda.

AR CPM-in 416.0.4-cü maddəsində nəzərdə tutulmuş əsas kontekstindən qeyd edilməlidir ki, yuxarıda sadalanan pozuntulara həm andlı iclasçıların iştirakı ilə birinci instansiya məhkəməsində, həm apellyasiya instansiyası məhkəməsində yol verilməsi, həm də hökmü və ya qərarı apellyasiya instansiyası məhkəməsi tərəfindən yoxlanmış birinci instansiya məhkəməsində yol veril-

məsi və bunun apellyasiya instansiyası məhkəməsində aşkar edilərək aradan qaldırılmaması müvafiq hökm və ya qərarın kassasiya qaydasında ləğv edilməsinə və ya dəyişdirilməsinə səbəb ola bilər.

– məhkəmənin təqsirləndirilən şəxsə istinad edilən əməllərdən hər hansı birinə öz fikrini bildirməməsi. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, təqsirləndirilən şəxsə istinad edilən əməllər özündə həm şəxsə istinad edilən ayrı-ayrı cinayət əməllərini, həm də ayrılıqda götürülmüş cinayət əməlinin ayrı-ayrı epizodlarının hamısını ehtiva edir.

– məhkəmənin cinayət tərkibinin əlamətləri olmadan ittiham hökmü çıxarması. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, AR CPM-in 42.1-ci maddəsinin tələblərinə əsasən, əməldə cinayət tərkibi yoxdursa, məhkəmə təqsirləndirilən şəxs barəsində bəraət hökmü çıxarılmalıdır. «Cinayət tərkibinin əlamətləri» kateqoriyasının izahı üçün cinayət hüquqi doktrinaya müraciət etmək daha məqsədəuyğundur. Cinayət hüquq elmi konkret cinayət tərkiblərinin əlamətlərini ümumiləşdirməklə cinayət tərkibi haqqında ümumi təlim yaratmışdır. Cinayət tərkibinin ümumi tərifi ancaq qəsdi kriminal əməl kimi xarakterizə edən əlamətlərin köməyi ilə verilə bilər. Belə əlamətlər də tərkibin zəruri və fakultativ əlamətlərindən ibarətdir. Ədəbiyyatda bu əlamətləri əsas və əlamətlər kimi adlandırmağın əlverişli oluduğu təklif edilir. Əsas əlamətlər bütün konkret cinayət tərkiblərinə daxil olan zəruri əlamətlərdir. Əlavə əlamətlər isə zəruri əlamətləri konkretləşdirir, ayrı-ayrı cinayət növlərinin xüsusiyyətlərini xarakterizə edilir. Cinayət tərkibinin zəruri əlamətləri əsas obyekti (bilavasitə obyekti), ictimai təhlükəli hərəkəti və ya hərəkətsizliyi, qəsdi və ya ehtiyatsızlığı, habelə subyekti xarakterizə edir. Fakultativ əlamətlər bütün cinayət tərkiblərinə daxil edilmir. Qanunverici ayrı-ayrı konkret tərkiblərin qurulmasında fakultativ əlamətlərdən istifadə edir. Fakultativ əlamətlər bütün cinayət tərkibləri üçün xarakterik deyildir, yalnız ayrıca tərkiblərin elementlərini xarakterizə edir. Belə əlamətlər tərkibin zəruri əlamətlərinə əlavə edilir və məlum növ cinayətin spesifik xüsusiyyətlərini nəzərdə tutur.

– məhkəmə tərəfindən təqsirləndirilən şəxsin əməllərinin qanunun daha yüngül maddəsi ilə yenidən tövsif edilməsi halları istisna olmaqla, məhkuma ittiham elan edilməmiş əməlin törədilməsinə görə səhvən ittiham hökmünün çıxarılması. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, AR CPM-in 318.1-ci maddəsinə əsasən, məhkəmə baxışı nəticəsində məhkəmə təqsirləndirilən şəxsin əməlini ağır cinayətdən daha yüngül cinayət əməlinə tövsif etmək, habelə ona qarşı irəli sürülmüş ittihamdan ayrı-ayrı bəndləri çıxarmaq hüququna malikdir. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Məhkəmə hökmü haqqında» 27 dekabr 1996-cı il tarixli 4 saylı qərarının 8-ci bəndində göstərilir: «Məhkəmədə ittihamın hər hansı formada dəyişdirilməsi hökmün təsviri hissəsində əsaslandırılmalıdır. Məhkəmə ittihamı dəyişməyə və ya cinayətin ayrı-ayrı epizodlarını qanunun müttəhimə elan olunmamış maddəsi ilə tövsif etməyə haqlıdır. Bu zaman

məhkəmə bunu əsas tutmalıdır ki, cinayətin tövsifinin belə dəyişməsinə yalnız o şərtlə yol verilə bilər ki, müttəhimin qanunun yeni maddəsi ilə tövsif olunan hərəkətləri məhkəməyə vermə zamanı onun təqsirində nəzərə alınmış olsun, yeni ittihamda daha ağır cinayətin əlamətləri olmasın və faktiki halları görə müttəhimin məhkəməyə verildiyi ittihamdan əhəmiyyətli dərəcədə fərqlənməsin, ittihamın dəyişdirilməsi isə müttəhimin vəziyyətini ağırlaşdırmasın və onun müdafiə hüququnu pozmasın».

– məhkəmənin cinayət qanunu ilə nəzərdə tutulmayan əməlin törədilməsinə görə səhvən ittiham hökmü çıxarması. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasının cinayət qanunu AR Cinayət Məcəlləsindən ibarətdir, cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar yalnız Cinayət Məcəlləsinə daxil olunduqdan sonra tətbiq edilə bilər (AR CM-in 1-ci maddəsi). Başqa sözlə, qanunvericilik prosesində yeni qəbul edilən və cinayət-hüquqi normalar müəyyən edən qanunlar müstəqil və ya ayrılıqda tətbiq edilmir, onlar kodifikasiya (məcəllələşdirmə) keçdikdən sonra tətbiq edilə bilərlər. Nəzərdən keçirilən əsasın məzmunu kontekstindən «cinayət qanunu ilə nəzərdə tutulmayan» əməl dedikdə, heç bir zaman cinayət hesab edilməmiş əməl, əvvəllər cinayət hesab edilmiş, lakin sonradan dekriminallaşmış əməl, qanunla kriminalllığı müəyyən edilmiş, lakin hələ Cinayət Məcəlləsində təsbit edilməmiş əməl başa düşülür. Əməlin cinayət qanunu ilə nəzərdə tutulmaması baş vermiş hadisənin cinayət hadisəsi kimi nəzərdən keçirilməsini istisna edir. Cinayət hadisəsinin olmaması isə, cinayət təqibini istisna edən haldır – belə halda cinayət təqibi başlana bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir. AR CPM-in 42.1.1-ci maddəsinə əsasən, cinayət hadisəsi olmadıqda məhkəmə baxışı nəticəsində təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş cinayətin törədilməsində onun təqsirsizliyini təsdiq edən bəraət hökmü çıxarılır. Məhz bu səbəbdən qeyd edilən halda məhkəmənin ittiham hökmü çıxarılması səhv hesab edilir və ittiham hökmünün ləğv edilməsi əsası kimi çıxış edir.

– məhkəmənin cinayət qanunu ilə nəzərdə tutulmayan və ya andlı iclasçıların verdiktinə uyğun olaraq güzəşt edib yolverilməz hədlərdə cəza tətbiq etməklə ittiham hökmü çıxarması. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, burada mahiyyət etibarı ilə həm yüngüllüyünə, həm də ağırlığına görə törədilmiş cinayət əməlinə uyğun gəlməyən cəzadan söhbət gedir. Təyin edilmiş cəza həm ağırlığına, həm də yüngüllüyünə görə məhkumun şəxsiyyəti və ictimai təhlükəli əməlin xarakterinə və ağırlıq dərəcəsinə uyğun gəlmədikdə ittiham hökmü kassasiya qaydasında ləğv edilməli və ya dəyişdirilməlidir.

– məhkəmənin qanuni qüvvəyə minmiş hökmlə şəxsin barəsində əvvəllər məhkum edildiyi əməlin törədilməsinə görə ittiham hökmü çıxarması. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, heç kəs eyni bir cinayətə görə iki dəfə cinayət məsuliyyətinə cəlb edilə bilməz (AR

CM-in 8.2-ci maddəsi), eləcə də, heç kəs eyni əməlin törədilməsinə görə təkrar məhkum edilə bilməz (AR CPM-in 34.1-ci maddəsi) – Non bis in idem prinsipi.

– məhkəmənin cinayət təqibini istisna edən halların mövcudluğuna baxmayaraq ittiham hökmü çıxarması. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, cinayət təqibini istisna edən halların dairəsi qanunla qəti şəkildə nəzərdə tutulmuşdur (AR CPM-in 39-cu maddəsi).

– məhkəmənin yeni cinayət qanunu ilə ləğv edilmiş cəzanı tətbiq etməklə, yaxud amnistiya aktını tətbiq etməməklə ittiham hökmü çıxarması. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, təyin edilməsinə yol verilən cəzaların sistemi qüvvədə olan Cinayət Məcəlləsinin 42-ci maddəsində sadalanmışdır. Nəzərə almaq lazımdır ki, qüvvədə olan Cinayət Məcəlləsində cəzalar sistemindən 31 may 2011-ci il tarixdə «azadlığın məhdudlaşdırılması», 7 mart 2012-ci il tarixdə isə, «əmlak müsadirəsi» cəzaları çıxarılmışdır. Başqa sözlə, bu cəzalar yeni cinayət qanunu ilə ləğv edilmişdir.

Amnistiya aktının tətbiq edilməməsi ilə ittiham hökmünün çıxarılmasına gəlincə isə, qeyd etmək lazımdır ki, ümumi qaydalara görə, AR CPM-in 39.1.12-ci maddəsi ilə amnistiya aktına əsasən şəxs cinayət məsuliyyətindən azad edilməli olduqda bu hal cinayət təqibini istisna edən hal olduğundan çıxarılmış ittiham hökmünün ləğv edilməsi üçün əsas kimi çıxış edir. Lakin burada da bir istisna mütləq qeyd edilməlidir. Belə ki, AR CPM-in 42.2.2-ci maddəsinə əsasən, məhkəmə amnistiya aktını tətbiq edərək təqsirləndirilən şəxsi təyin edilmiş cəzadan azad etməklə ittiham hökmü çıxararsa, bu halda ittiham hökmünün çıxarılması AR CPM-in 416.0.12-ci maddəsində nəzərdə tutulmuş əsas kontektsindən tamamilə qanuni hesab edilməlidir.

– məhkəmənin təqsirləndirilən şəxs tərəfindən törədilən əməlin cinayət qanunu ilə nəzərdə tutulmadığına əsasən səhvən bəraət hökmü çıxarması. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, nəzərdən keçirilən əsasda məhkəmənin tövsif səhvi və AR CPM-in 39.1.2-ci maddəsinin düzgün tətbiq edilməməsi əsaslandırılmalıdır.

– məhkəmənin cinayət işi üzrə icraata, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata bu iş üzrə məhkəmənin qüvvəyə minmiş yekun qərarının, cinayət təqibini istisna edən halların və ya cəzanın tətbiqini aradan qaldıran yeni cinayət qanununun, habelə amnistiya aktının olmamasına baxmayaraq, səhvən xitam verməsi. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, CPM-in 416.0.14-cü maddəsində apellyasiya instansiyası məhkəməsinin və ya birinci instansiya məhkəməsinin icraata xitam verilməsi haqqında qərarının kassasiya qaydasında ləğv edilməsi üçün əsaslar təsbit edilmişdir. Bu zaman həmin qərarın ləğv edilməsi üçün əsas kimi cinayət təqibini istisna edən aşağıdakı halların düzgün tətbiq edilməməsi nəzərdə tutulmuşdur: eyni ittiham üzrə məhkəmənin qüvvəyə minmiş yekun qərarının olması (CPM-in 39.1.6-cı maddəsi); cinayət təqibini istisna edən halların olmaması (CPM-in 39-cu maddəsi);

cinayət təqibini aradan qaldıran yeni cinayət qanununun olması (CPM-in 39.1.11-ci maddəsi); amnistiya aktının olması (CPM-in 39.1.12-ci maddəsi).

– məhkəmənin törədilmiş əməlin tövsifində səhvə yol verməsi. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, əməlin tövsifində səhv özünü tətbiq edilməli olan cinayət qanunu normasının məhkəmə tərəfindən tətbiq edilməməsində, tətbiq edilməli olmayan cinayət qanunu normasının məhkəmə tərəfindən tətbiq edilməsində və ya cinayət qanunu normasının düzgün şərh edilməməsində biruzə verə bilər. Əməlin tövsifinin düzgün həyata keçirilməsi üçün Cinayət Məcəlləsinin həm Ümumi hissəsinin, həm də Xüsusi hissəsinin normalarının düzgün tətbiq edilməsi tələb edilir.

– məhkəmənin digər hakimiyyət orqanının səlahiyyətlərini həyata keçirməklə və öz səlahiyyətlərini aşmaqla iş üzrə hökm və ya qərar çıxarması. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, hər şeydən əvvəl, nəzərə alınmalıdır ki, cinayət prosesində çəkişmə prinsipinə əsasən, məhkəmə yalnız işin həll edilməsi funksiyasını yerinə yetirməli, nə ittiham, nə də müdafiə funksiyalarını öz üzərinə götürməməlidir. Odur ki, məhkəmə tərəfindən ittiham funksiyasını yerinə yetirən dövlət orqanlarının səlahiyyətlərini həyata keçirməklə qərarın qəbul edilməsi yolverilməzdir. Belə yolverilməz hallara müxtəlif misallar çəkmək olar. Məsələn, məhkəmə tərəfindən cinayət işinin başlanması haqqında qərar qəbul edilməsi və həmin iş üzrə hökm çıxarılması, məhkəmə tərəfindən şəxslərə ittiham elan edilməsi, onların təqsirləndirilən şəxs qismində cəlb edilməsi və sonda onlar barədə itiham hökmü çıxarması və s.

Məhkəmənin öz səlahiyyətlərini aşmaqla hökm və ya qərar qəbul edilməsi dedikdə isə, məhkəmə aidiyyəti haqqında qaydaların pozulması, məhkəmənin səlahiyyətinə aid olmayan məsələnin həll edilməsi və s. kimi hallar nəzərədə tutulur.

– məhkəmənin etirazlar və məhkəmə tərkibi barəsində AR CPM-in 107-118, 308 və 309-cu maddələrinin tələblərini kobud surətdə pozması. Nəzərdən keçirilən əsasda konkret normaların adları çəkilmişdir. Onların hər birinin məzmununu təkrarlamaqla məqalənin həcmini lüzumsuz yerə şişirtməmək üçün, sadəcə olaraq, bu əsasın cinayət prosesində etirazlar və məhkəmə tərkibi haqqında qaydaların pozuntularını nəzərdə tutduğunu qeyd etməklə kifayətlənmək istərdik.

– məhkəmənin CPM-in müddəalarına müvafiq olaraq dövlət ittihamçısının, xüsusi ittihamçının, təqsirləndirilən şəxsin, onun müdafiəçisinin və ya tərcüməçinin iştirakı məcburi olduğu halda cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraat materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə həmin şəxslərin iştirakı olmadan baxması. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, həmin əsasda sadalanan subyektlərin hər birinin cinayət prosesində məcburi iştirakı halları cinayət-prosessual qanunvericiliyinin ayrı-ayrı normalarının (AR CPM-in 311, 312, 314, 315, 92 və 26-cı maddələri) məzmunundan irəli gəlir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, «Məhkəmələr tərəfindən tibbi xarakterli məcburi tədbirlərin tətbiqi təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 08 noyabr 2012-ci il tarixli Qərarının 9-cu bəndinə əsasən, tibbi xarakterli məcburi tədbirlərin tətbiqi barədə materialı aldıqdan sonra, hakim CPM-nin 299-cu maddəsinin qaydalarına əsasən hazırlıq iclasını keçirir və CPM-nin 299.3-cü maddəsində göstərilən başqa əsaslar olmadıqda materialı məhkəmə baxışına təyin edir. Barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqi üzrə icraat aparılan şəxs, onun qanuni nümayəndəsi və müdafiəçisi məhkəmə hazırlıq iclasının və məhkəmə baxışı iclasının tarixi, vaxtı və yeri barədə qabaqcadan xəbərdar edilməlidirlər. Barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqi üzrə icraat aparılan şəxsin CPM-nin 299.9-cu maddəsində nəzərdə tutulmuş hallar istisna edilməklə, məhkəmə iclasında iştirak etmək hüququ təmin edilməlidir. Məhkəmə iclasında iştirak edən barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqi üzrə icraat aparılan şəxsə CPM-nin 91-ci maddəsində nəzərdə tutulmuş prosessual hüquqları izah edilməli və bu hüquqları həyata keçirmək imkanı yaradılmalıdır. Bu şəxsin məhkəmə iclasında iştirakının göstərilən əsaslar olmadan təmin edilməməsi CPM-nin 391.8.8-ci və 416.0.18-ci maddələrində nəzərdə tutulmuş kobud qanun pozuntuları kimi qiymətləndirilir və bu pozuntular məhkəmə qərarının ləğvinə səbəb olur.

– məhkəmənin CPM-in 140.0.2-ci maddəsində nəzərdə tutulmuş halların müəyyən edilməsi üçün təqsirləndirilən şəxsin məhkəmə-psixiatriya ekspertizasının keçirilməsini təyin etməməsi. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, AR CPM-in 140.0.2-ci maddəsinə əsasən, şübhəli və ya təqsirləndirilən şəxsin ictimai təhlükəli əməli törətdiyi zaman xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllıq və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək, yaxud onları idarə edə bilmək iqtidarında olub-olmaması yalnız psixiatriya sahəsində ekspertlərin rəyi ilə müəyyən edilə bilər. CPM-in 331.7-ci maddəsinə əsasən isə, CPM-in 140.0.1-140.0.4-cü maddələrində nəzərdə tutulmuş halların müəyyən edilməsi üçün ibtidai araşdırma zamanı ekspertiza keçirilməmişdirsə, məhkəmə ekspertizanın aparılmasını təmin etməlidir. Bu və digər hallarda ekspertiza təyin edildikdə, məhkəmə iclasında sədrlik edən cinayət prosesinin tərəflərinə ekspert qarşısında suallar qoymağı, ekspertizanın aparılmasının kimə tapşırılması və nəyin tədqiq edilməsi barədə öz mülahizələrini bildirməyi təklif edir. Məhkəmə cinayət prosesinin tərəflərinə aid olan şəxslərdən hər hansı birinin vəsatəti üzrə tərəflərə öz mülahizə və suallarını bildirmək üçün imkan yaradılması məqsədilə məhkəmə iclasında tənəffüs elan edir.

– məhkəmənin CPM-in 391.3.2-391.3.5, 391.37-391.3.9 və 391.6-cı maddələrində nəzərdə tutulmuş qərarları əsassız çıxarması. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, sadalanan qərarlar apellyasiya şikayətinə və ya protetestinə ilkin baxılması nəticəsində

çıxarılan bəzi qərarlardır. Qeyd edilən qərarlar o vaxt əsassız hesab edilə bilər ki, apellyasiya instansiyası məhkəməsi həmin qərarları bunun üçün qanuni əsaslar olmadan qəbul etsin, həmin qərarlarla həll edilməli olan məsələləri düzgün həll etməsin, yaxud digər hüquq pozuntularına yol versin.

– məhkəmənin məsuliyyəti ağırlaşdıran və ya yüngülləşdirən halları nəzərə almadan cəza təyin etməsi. Kassasiya protestində qeyd edilən əsasa istinad edildikdə, nəzərə alınmalıdır ki, cəzanı ağırlaşdıran hallardan fərqli olaraq, cəzanı yüngülləşdirən halların siyahısı qapalı deyildir. Odur ki, kassasiya protestinin hazırlanması, verilməsi və müdafiəsi zamanı bu məqama xüsusi diqqət yetirilməlidir.

## ƏDƏBİYYAT


1. Abbasova F.M. Cinayət prosesi. Dərslik. Ümumi hissə. B.: Zərdabi LTD MMC, 2012, 416 s.
2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi. B.: Zərdabi LTD MMC, 2012, 624 s.
3. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası / C.H. Mövsümovun, B.C. Kərimovun, Ə.H. Hüseynovun red. ilə, Bakı: Digesta, 2013, 1364 s.
4. Azərbaycan Respublikası Ali Məhkəməsinin təcrübəsi: 1(102)-800/08 №-li iş üzrə 2 dekabr 2008-ci il tarixli qərar.
5. Azərbaycan Respublikası Ali Məhkəməsinin təcrübəsi: 1(102)-64/10 №-li iş üzrə 9 fevral 2010-cu il tarixli qərar.
6. Azərbaycan Respublikası Ali Məhkəməsinin təcrübəsi: 1(102)-332/2010 №-li iş üzrə 16 iyun 2010-cu il tarixli qərar.
7. Azərbaycan Respublikası Ali Məhkəməsinin təcrübəsi: 1(102)-218/2012 №-li iş üzrə 16 mart 2012-ci il tarixli qərar.
8. Ağazadə M.A. Cinayət və cinayət-prosessual qanunlar haqqında hakimin düşüncələri. Bakı, Hüquq ədəbiyyatı, 2009, 200 s.
9. Гаврицкий А.В., Водяная В.Ю. О правовой регламентации нового порядка кассационного производства по уголовным делам // Наука и образование, 2012, № 11 (30), с. 57-60.
10. Червоткин А.С. Апелляция и кассация / Пособие для судей. М.: Проспект, 2010, 336 с.


## ПОДАЧА КАССАЦИОННОГО ПРОТЕСТА – КАК ФОРМА ПОДДЕРЖАНИЯ ГОСУДАРСТВЕННОГО ОБВИНЕНИЯ В СУДЕ КАССАЦИОННОЙ ИНСТАНЦИИ

**Ф.М.АББАСОВА**

### РЕЗЮМЕ


Кассационный протест – это средство поддержания государственного обвинения в суде кассационной инстанции. Согласно действующему законодательству, в случае пропуска срока на подачу кассационного протеста по уважительной причине лицо, имеющее право на подачу кассационного протеста, также вправе возбудить перед судом кассационной инстанции ходатайство о восстановлении пропущенного срока на подачу кассационного протеста. Автором также разъяснены некоторые проблематичные моменты восстановления пропущенного срока на подачу кассационного протеста, детально рассмотрены иные процессуальные вопросы, связанные с подачей кассационного протеста. Автором доктринально прокомментированы некоторые нормы уголовно-процессуального законодательства.



**Ключевые слова:** уголовный процесс, государственное обвинение, кассационный протест, сроки, субъекты

## ISSUE OF A CASSATION PROTEST – AS A FORM OF MAINTENANCE OF THE STATE CHARGE TO COURT OF CASSATION INSTANCE

**F.M.ABBASOVA**

**SUMMARY**

Cassation protest, is a means of maintenance of the state charge at the court of cassation instance. According to the current legislation, in case of the term admission on issue of a cassation protest for a good reason, the person having the right of issuing a cassation protest, has the right to excite before court of cassation instance the petition for restoration of the passed term on giving of a cassation protest. The author explaines some problematic moments of restoration of the passed term on issuing of a cassation protest. In article, other procedural questions connected with the cassation protest are also considered in details. The author comments on some norms of the criminal procedural legislation in details as well.

**Key words:** criminal trial, state charge, cassation protest, terms, subjects